# Güclü dövlətçilik və müstəqillik yolunun başlanğıcı

**1993-cü ilin Gəncə hadisələrindən 30 il ötdü. Müstəqillik tariximizin ən faciəli səhifələrindən olan Gəncədəki qardaş qırğını o dövrdə respublikamızdakı dərin siyasi-hərbi böhranın, ölkənin idarəolunmaz vəziyyətə düşməsinin, hakimiyyətdə olanların kobud səhvlərinin nəticəsi idi. Torpaqlarımızın işğala məruz qaldığı bir ərəfədə belə hadisələrin baş verməsi, o cümlədən separatizmin baş qaldırması dövlətçiliyimizi və müstəqilliyimizi sürətlə məhvə doğru sürükləyirdi.**



30 il əvvəl respublikamızda baş verənlər ilk növbədə lider amilinin dövlətin və xalqın həyatındakı rolunu təsdiq edirdi. Çox təəssüf ki, müstəqilliyimizin ilk illərində xalq özünün həqiqi liderindən uzaq düşmüş, hakimiyyətə qaragüruh qüvvələr yiyələnmişdilər. Üzləşdiyimiz böhranların, uğursuzluqların, faciələrin əsas səbəbi xalqı öz ətrafında birləşdirə bilən, xarizmatik, nüfuzlu şəxsin ölkəyə rəhbərlik etməməsi idi. Bu baxımdan o dövrdə Azərbaycanın hər yerindən Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyevə ünvanlanan məktublar, teleqramlar, müraciətlər xalqımızın məhz bu böyük şəxsiyyətin liderliyi ilə bütün təhlükələrdən xilas olacağına olan inamının ifadəsi idi.

Heydər Əliyev vətənini, dövlətini dərindən sevən, öz ölkəsinin maraqlarını hər şeydən uca tutan şəxsiyyət idi. Bunun nəticəsi idi ki, Ulu Öndər Moskvada bütün vəzifələrindən istefa verdikdən sonra Naxçıvana qayıtmış, muxtar respublikanı Ermənistanın işğalından qorumuş və xalqımızın milli azadlıq mücadiləsinin yeni keyfiyyət mərhələsinə yüksəlməsinə tarixi töhfələr vermişdi. Naxçıvandan keçmiş sovet qoşunlarının tam çıxarılması, Yeni Azərbaycan Partiyasının təsis edilməsi kimi tarixi hadisələr ilk növbədə Heydər Əliyevin milli təəssübkeşliyindən, öz xalqının və dövlətinin taleyinə olan həssas münasibətindən xəbər verirdi.

1993-cü il iyunun 4-də Gəncədə S.Hüseynovun başçılıq etdiyi hərbi hissə ilə hökumət qüvvələri arasındakı silahlı toqquşmada qardaş qırğınının baş verməsi Ulu Öndər Heydər Əliyevi dərindən narahat etmişdi. Bu faciə AXC-Müsavat qaragüruhunun idarəçilikdə buraxdığı kobud səhvlərin artıq özünün kulminasiya nöqtəsinə çatmasından xəbər verirdi. Heydər Əliyev iyunun 7-də Naxçıvan MR Ali Məclisi və Nazirlər Kabineti Rəyasət Heyətinin birgə iclasında Gəncədə baş verənlərə qiymət vermişdi. Ulu Öndər bilirdi ki, ona ünvanlanan müraciətləri, xalqın istək və arzusunu nəzərə alıb çiynini irəli verməsə, proseslərə müdaxilə etməsə, hələ kövrək olan müstəqilliyimiz yenidən itiriləcək, milli dövlətçiliyimiz məhvə məhkum olacaq.

O dövrdə hakimiyyətdə olan qüvvələr də problemlərdən xilas olmaq üçün Heydər Əliyevi Bakıya dəvət edirdilər. Hansı ki, həmin qüvvələr 1992-ci ilin oktyabr ayında Naxçıvanda Ulu Öndərə qarşı təxribat törətməyə cəhd göstərmişdilər. Məhz həmin qüvvələr Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi vaxtlarda ona qarşı qarayaxma kampaniyası həyata keçirmiş, Ulu Öndərin fəaliyyətinə kölgə salmaq üçün dəridən-qabıqdan çıxmışdılar.

Lakin Heydər Əliyev elə bir böyük düha, elə bir dahi şəxsiyyət idi ki, AXC-Müsavat kimi cılız qüvvə onun qarşısında aciz idi. Heydər Əliyevin böyüklüyü həm də onda idi ki, hakimiyyətdə olanların ona qarşı həyata keçirdiyi təxribatları, qarayaxma kampaniyasını bir kənara qoyub, 1993-cü il iyun ayının 9-da Naxçıvandan Bakıya gələrək xalqın köməyinə, dövlətçiliyin xilasına tələsdi. Bununla bağlı çıxışlarının birində Heydər Əliyev deyib: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi adi gəliş olmadı. Bu gəliş tarixin gedişini dəyişdi. Bu gəliş Azərbaycanı məhvə aparan proseslərin axarını kökündən dəyişdi. Düz 30 il əvvəl, bugünkü tarixdə xalqının, dövlətinin köməyinə gələn Ulu Öndər Azərbaycanın məhvini, parçalanmasını planlaşdıran bütün qüvvələrin planlarını iflasa uğratdı. Bakıya gəldikdən sonra heç nədən çəkinməyərək Gəncəyə yollanan Heydər Əliyev öz müdrikliyi, təcrübəsi ilə vətəndaş qarşıdurmasının qarşısını aldı, növbəti vətəndaş qırğınının törədilməsinə imkan vermədi.

1993-cü il iyunun 9-da Bakıya gələn Heydər Əliyevin 6 gün sonra - iyun ayının 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi o zaman ümummilli bayrama, hər kəsin böyük coşqu ilə qarşıladığı siyasi hadisəyə çevrilmişdi. Çünki Ulu Öndərin ölkənin ali qanunvericilik orqanına sədr seçilməsi Azərbaycanın qurtuluşu, xilası demək idi. Bununla Azərbaycan tarixində tamamilə yeni dövrün əsası qoyuldu. Bununla da Azərbaycanın həqiqi müstəqilliyinə nail olundu, bu gün qürurla fəxr etdiyimiz güclü Azərbaycan dövlətinin etibarlı təməlləri yaradıldı. Heydər Əliyev siyasəti Azərbaycanın yüksəlişini, dünya birliyində layiqli yer tutmasını layiqincə təmin etdi.

Heydər Əliyevin yaratdığı təməllər üzərində Azərbaycan sürətlə yüksəlir, inkişaf nümunələri yaradır. Heydər Əliyev siyasətinin möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin nəticəsi olaraq Azərbaycan müstəqillik tarixinin ən qüdrətli mərhələsini yaşayır və əlbəttə ki, bundan sonra da dövlətimiz daha da qüdrətlənəcək. Torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün təmin edilməsi ilə nəticələnən Vətən müharibəsi də Azərbaycanın bir dövlət kimi yüksəlişinin və qüdrətinin təntənəsidir.

Müasir Azərbaycan dövlətçiliyinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan bütün hadisələri Azərbaycanın taleyində müsbətə doğru dəyişikliklərin əsasını qoymaqla, hər bir tarixi dövrdə yeni inkişaf mərhələsinin başlanğıcı olub. Bu baxımdan 30 il əvvəl - 1993-cü il iyun ayının 9-da Heydər Əliyevin xalqımızın çağırışı ilə Naxçıvandan Bakıya gəlməsi müasir dövlətçilik tariximizin mühüm salnaməsidir.

Dövlətçiliyimizin və müstəqilliyimizin məhvolma təhlükəsi ilə üzüzə qaldığı həmin təlatümlü günlərdə Ulu Öndər Heydər Əliyevin başlatdığı xilaskarlıq missiyası bu gün qürur duyduğumuz güclü Azərbaycan dövlətinin yaranması ilə nəticələndi. Möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi hər bir nailiyyət təsdiq edir ki, 30 il əvvəl başlanmış Heydər Əliyev siyasəti Azərbaycanın yüksəlişinin və qüdrətli dövlətçiliyimizin yeganə təminatçısıdır.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.- 9 iyun.- S.5.